Beşinci güllə

(hekayə)

Bu nisgilli, həm də dəhşətli hadisə lap çoxdan baş versə də, aradan əlli il keçməsinə baxmayaraq bu gün də o müdhiş gecəni unuda bilmirəm.

İyulun son dörd-beş günü istilər tüğyan edirdi. Bu yerlərdə havalar axşamdan keçmiş sərinləşir, qocalar və xəstələr ürək dolusu, doyunca nəfəs ala bilirdilər. Gecənin bir aləmində lay-lay buludlar yaxınlıqdakı Kür çayını keçib kəndimizin üstündə lövbər saldı. Pəncərədən asimana baxanda qəribə bir mənzərəni müşahidə etdim. Hər tərəf zülmət içində, zil qaranlıqdı. Ay da qaçıb gizlənmişdi. Vahiməli qapqara buludların arasından azacıq işıq süzülürdü. Bu işıq elə bil ağzıaşağı baş-başa yatan iki ayı başı arasından təkcə yer kürəsində bizim kəndin üstünə düşürdü. Təsəvvür edirdim ki, bu işıq təkcə bizim həyəti işıqlandırır. Qapqara buludların vahiməsindən cırcıramalar da səslərini içinə salıb susmuşdular. Sərin gecə mehi yarıçılpaq bədənimi üşüdən kimi oldu.

Bütün kənd yuxudaydı. Nə itlərin hürüşməsi, nə də arxlardakı qurbağaların qurultusu eşidilirdi. Göylərin qorxunc, müəmmalı üzü məni özünə necə aludə etmişdisə, nə qədər vaxt keçməsindən xəbərsizdim. Bir az keçmiş yan-yana, ağzı aşağı yatmış ayı balaları görünməz oldu. Göyün üzü açıldı, qara buludlar bir-birini qova-qova səssiz-səmirsiz haralara isə çıxıb getdi. Ay bütün gücü ilə zülmətləri yarırmış kimi yeri nura qərq etdi. Uzaqda, Kür çayının o tərəfində - Qarabağın üstündə şimşəklər şaqqıldayırdı. Ardı-arası kəsilməyən göy gurultusu sakitləşmək bilmirdi. Yavaş-yavaş yağış səpələnməyə başladı.

Evdəkilər çoxdan yatmışdılar. Yoxsa şimşəkdən və nəriltili göy gurultusundan qorxardılar. Körpə nəvələrim Ləmanla Yusif şimşəkdən və göy gurultusundan çox qorxurdular. Yağış güclənəndə Beli kılık adlı itimiz həyət darvazasına səmt ara vermədən hürməyə başladı. Küçə qapısının zəngi çalındı. Gecədən keçmişdi. Kənd şirin yuxu içindəydi. Bu vaxtsız qonaq kim olardı? Saata baxdım. İki tamamı göstərirdi. Küçə işığını yandırıb həyətə düşdüm. Kimdir, sualıma, "qardaş mənəm, Ziyayam, Qarabağdan - hərbi hissədən gəlirəm" sözlərini eşidən kimi qapını açdım, uzun həsrətlilər kimi qucaqlaşdıq.

Ziya: "Hərbi hissədən vaxtsız buraxdılar. Bir insaflı, xeyirxah balıqçı, gəmisi ilə məni Kür çayından keçirdi. Başa düşdüm ki, gecənin bu vaxtı stansiyaya çətin gedərəm. Onsuz da Tiblis-Bakı qatarı Ucar dəmir yolu stansiyasından keçib gedib ". Həyətimizdəki sıx, hündür ağacların altında tikdirdiyim besetkamızda - "yay otağımızda" oturduq. Aclığım yoxdur desə də, soyuducudan mineral su və doğranmış qarpız, pendiri gətirib süfrəyə düzdüm. Ziya əməlli-başlı sınıxmışdı. Ovurdları batsa da, gözlərinin atəşi sönməmiş, gözəlliyini itirməmişdi. Qəddi-qaməti düzəlmişdi.

Ziyanın "qardaş nə əcəb yatmamısan?" sualına Anatoli Ribakovun "Arbat övladları" romanının son səhifələrini oxuyurdum, - cavabını verdim. Qurtaran kimi ağaclar susuzluqdan yanır, həyəti suvaracağam, - dedim. Su bizlərdə qəhətə çıxıb. Kür çayının üç-dörd kilometrliyində yaşasaq da, su sarıdan zillət çəkirik, gələcəkdə lap çətin olacaq. Hələ alimlər 70- ci illərdə yazırdı ki, bəşəriyyətin gələcək qorxusu - içməli su olacaqdır. XXI əsrdə istilər tüğyan edəcək, yer, göy, günəş bir-birinə tərs mütənasib olub düşmənə çevriləcəklər. İçməli su məsələsi bəşəriyyətə problem yaradacaqdır. Ay Ziya, fikirləşirəm ki, camaat su yerinə neft içməyəcək ki? Elə məqamlarda qızıl da kara gəlmir. Su dirilikdir, su həyatdır. Sağlıq olsun, yəqin alimlərimiz bu müşkül işə bir əncam çəkəcəklər.

Səhər çörəyimizi yeyəndən sonra Bakıya gedən "Paz" avtobusların biri ilə dostumu yola saldım. "Şəhərə gələndə mütləq bizə gələrsən", - dedi. Aradan beş-altı ay keçmiş teleqram aldım. Məni şəhərdə keçiriləcək toy mərasiminə dəvət edirdi.

Ziya ilə tanışlığımız dörd il əvvəl başlamışdı...

Onda mən atamgillə bir yerdə yaşayırdım. Avqustun sonu məktəbə gəlir, illik iş planlarımızın sənədləşməsi ilə məşğul olur, bir qrup domino həvəskarı olan müəllimlər məktəbin giriş darvazası yanındakı uca, qollu-budaqlı iki nəhəng qovaq ağacının altında yerləşən, qırmızı kərpicdən hörülmüş, iki otaqlı məktəb bufetində öz "işləri" ilə xudmani məşğul olurdular. Bu oyunçular otuz-qırx ildən çox pedoqoji təcrübəsi olanlar idi. Biz üç-dörd nəfər gənc müəllimlər isə bəzən tamaşaçı sifəti ilə oyunu izləyirdik. Belə istidə, təbii ki, qovağın kölgəsində oturub vaxt öldürməkdən savayı əlacımız yox idi.

Həyət qapısının cırıltısına hamımız o səmtə baxdıq. Ucaboy, zil qara saçlı, əynində dəbdə olan limon rəng yapon üç düymə svitri, finski şalvarlı, bir əlində çamadan, digər əlində portfel olan gənc yaxınlaşıb salam verdi. Çamadanını yerə qoyub hamı ilə əl verib görüşdü. Oyunçular heç nəyin fərqinə varmadan dominolarını stola elə çırpırdılar ki, az qala səsi qulaqları deşsin.

Gənc yavaş səslə:

- Təyinatımı bu məktəbə veriblər, rus dili müəllimiyəm, - dedi. Mən də təyinatla keçən il gəlmişəm, filologam, bu kənddənəm, - dedim. Gedək direktorun yanına, görüşüb tanış olarsınız.

Oğlan tələbəliyi yeni başa vursa da, danışıq-hərəkətində bir amiranə ağırlıq, təmkin, kübarlıq vardı. Direktor oğlanın istiqanlığını görüb ona daha hiss olunacaq münasibət göstərdi. Ziyanı qalacağı yerin rahatlığı maraqlandırırdı. Direktor mənimlə məsləhətləşdikdən sonra belə qərara gəldik ki, oğlanı qonşuluğumuzdakı Nübar arvadın evində yerləşdirək. Sıx uca ağaclardan ibarət geniş məhlələri və ikimərtəbəli evləri qonaq üçün rahat bir məkandı. Nübarın əri Nəbi kişi bağban olduğu üçün həyətlərində hər meyvə ağacından əkmişdi. Çox səliqəli həyətləri Ziyanın xoşuna gələcəkdi. Əminliklə Ziyanı əvvəlcə evimizə apardım. Anam və kiçik tələbə qardaşlarım şəhərdən gəlmiş müəllimi ailəmizə xas istiqanlılıqla qarşıladılar. Həyətimizdəki qoca, vaxtilə babam əkmiş qoşa tut ağaclarının altında oturduq. Sonra Ziyanı öz otağıma aparıb üst-başını dəyişməsini, yuyunmasını məsləhət gördüm. Şəhərli oğlan mənə aid olan otağın genişliyinə, zəngin kitabxanama baxıb nəyisə xatırladı.

- Ucqar kənddə belə zəngin kitabxana alqışa layiqdir, - deyib, gülümsündü. Həyətə düşəndə tut ağacının altında anamın dədədənqalma cehizlik yeddiletrlik samovarı dəm-dəm edirdi. Süfrənin üstünə bütün təamlardan düzülmüşdü. Ziya pilləkənləri enəndə adamboyu daş hasarın o üzündəki camış-inəkləri başı bağlı görüb soruşdu:

- Müəllim, bu iri heyvanlar niyə çölə getməyib? Bildirdim ki, otlaqlar şumlanıb, Kürqırağı meşələr qırılıb hamısının yerində pambıq əkilib. Oğlan ani nəsə fikirləşib susdu. Çay süfrəsi arxasında onun beşaltı metrlikdə dəmir setkayla əhatə olunmuş yerdə əkilən tərəvəzə baxanda üzü işıqlandı. Sol tərəfdə olan yeddi arı təhnəsi də diqqətindən yayınmadı. Azərbaycan Dövlət Universitetində və Politexnik İnstitutunda oxuyan qardaşlarım Ziyanı sual atəşinə tutmuşdular.

Anam kənd qadınlarına məxsus sadəlövhlüklə, bir də yeddi uşaq anası kimi şəhərli oğlandan ata-anasının, bacı-qardaşlarının neçə nəfər olmasını soruşdu.

- Ay ana, anam həkim, atam hökumət işçisidir, evin tək uşağıyam, - deyib gülümsəyəndə çöhrəsi nurlandı.

Anam biləndə ki, Ziya qonşuluqdakı Nübar arvadın evində kirayə qalacaq, acıqlandı. O nə sözdü, bizim uşaq da təkdir, yeddi-səkkiz otağımız var, bizdə çox genişlikdir, sən də mənim balam, kirayəyə nə pul verəcəksən. Maaşını yığ, ata-anana göndər.

- Sağ olun, ay anam, uzağa getmirəm ki, hasarın o tayında olacağam.

Ziya beş-altı gün bizdə qaldıqdan sonra israrla məcbur etdi ki, kirayələdiyi evə - Nübargilə köçsün.

Münasibətimiz o qədər yaxşı oldu ki, mənə qardaş deyə müraciət edirdi. Üç il təyinat müddətindən sonra hər ikimiz hərbi xidmətə getdik. Mən Xabarovskidə qulluq etdiyimdən heç nədən xəbərim olmadı. Ziya isə Almaniyada, son iki ayı isə Tiflisdə qulluq edibmiş. Buraxılış vaxtı Qarabağda ezamiyyətdəymiş. O illər kənddə müəllim işləyənlər bir illik hərbi xidmətdə olurdular. 1973-cü ilin yayından yeni qərara əsasən, kənddə müəllim işləyənlər hərbi xidmətdən azad oldular.

Ziya teleqram vurub məni toya dəvət edirdi. Dostumun toyu köhnə İnturist deyilən yerdəydi. Ata-anası ilə məni tanış etdi. Sevincək, yüksək əhvali-ruhiyyə ilə, şövqlə toyda iştirak edib, gecə Tiflis qatarı ilə şəhərdən çıxdım. Sən demə Ziyanın atası çox böyük vəzifədəymiş. Biz bu vaxta qədər bir kəlimə də olsun soruşmamışdıq ki, atan harada işləyir. Kənd adamıydıq, öz zəhmətimizlə həyatımızı yaşayırdıq. Bir də "Arbat övladları" məni hakimiyyət dairələrindən çirbindirmişdi. Saray çəkişmələri, sui-qəsdlər, kreslo davalarının aqibətinin nə ilə qurtardığını kitablardan oxumuş, kinolardan görmüşdüm. Ziyagilin evi Stalinovka binalarında bir mərtəbəni əhatə edirdi, ikinci blokda üçüncü mərtəbə bütövlükdə onların idi.

İki ayda bir dəfə məktublaşırdıq. Bir müddət əlaqəmiz kəsildi. Sonra Moskvadan bir məktubu gəldi, dostum Moskvada kurs keçibmiş. İndisə Leninqraddan (Sankt-Peterburqdan) yazırdı. Təhlükəsizlik orqanlarında işləmək üçün əlavə təhsil alırdı.

İngilis, alman və rus dillərini mükəmməl bildiyindən Ziya nazirlikdə xarici əlaqələr şöbəsində xidmət edirdi. Məktublarında yazırdı ki, tez-tez Avropa ölkələrinə uzunmüddətli ezamiyyətlərə gedir.

Ziyanın anası qeyri-millətdən idi. Məktublarında hər şeyin yaxşı olduğunu, işlərinin pis getmədiyini, kapitan rütbəsinə yüksəldiyini də sevincək bildirirdi. Hiss edirdim ki, nigaranlığı övladının olmamasıyla bağlı idi. Anası öz tayfasından olan gəlinini şəhərdə, hətta Moskvada tanınmış ginekoloqlara göstərmiş, çoxlu müalicələr alan gəlinə heç nəyin xeyri olmamışdı. Leninqrad (Sankt-Peterburq) həkimləri də eyni diaqnozu qoymuşdular. Anası bir məkrli iş görmək istəyir və gəlinə dəfə-dəfə tapşırır ki, sirri Ziyaya demə, görək başımıza nə gəlir və qaynana gəlinə deyir ki, belə getsə Ziya ondan ayrılacaq. Oksana bu sözdən vahimələnir. Dünyalar qədər sevdiyi ərindən ayrılmaq onunçün ölümə bərabərdi.

Gəlin-qaynana arasında hər gün bu mövzuda söhbətlər olur və bu mübhəm iş gəlini üzüb haldan salır. Bir gün Qalina gəlinini başa salır ki, bu millətin çox qorxulu adət-ənənələri var. Elə bir ciddi iş görməliyik ki, o bunların heç ağlına da gəlməsin. Çünki müsəlmanların mentalitetində ölüm ola bilər, amma belə işlər yol verilməzdi. Mümkünsüz bir gedişə əl atmalıyıq, görək axırı nə olur, - deyir qayınana. Çox çalışdıqdan, götür-qoy etdikdən sonra məclis təşkil edir, kefli olduğu bir məqamda ərini də bu işə təhrik edir.

Nəhayət... Müəyyən bir vaxtdan sonra Oksananın oğlu olur.

Ziyanın ağır, qorxulu, həm də təhükəli dövlət işlərinə başı elə qarışır ki, xarici ezamiyyətlər o qədər çox, uzunmüddətli olur ki, heç nədən, qohum-qonşudan, dost-tanışdan xəbərsiz yaşayır.

Məktublarının birində oğlu olması xəbərini mənə bildirmişdi, yazıları da nağıl fason, uzun-uzadı olmazdı. Ən çox üç-dörd cümlə ilə. Anamı, qardaşlarımı, atamı soruşardı.

Almaniya ezamiyyətlərinin birində vaxt tapıb özünü büsbütün yoxlatdırır. Analizin cavabı Ziyanı sarsıdır. Həkimlərin heç vaxt uşağın olmayacaq cavabı yazıq oğlanı şoka salır. Bəs belə isə bu uşaq kimdəndir? Bu xoflu suallar onun içini qurd kimi didib parçalayır. Bu dəfə Almaniya ezamiyyətindən qayıdanda Qalinayla Oksana onu heç vaxt belə küskün, dənizdə gəmisi batmış kimi görməmişdilər. Anasının hiyləsi, fitnə-fəsadı işə düşür, onu ovundururlar.

İşdə də yoldaşları və idarə rəisi Ziyanın bu halından, üzgünlüyündən çox nigaran qalırlar. Nə isə Ziyanı içindən didib parçalayırdı. Bu gen dünyada özünə yer tapa bilmir, ürəyinə min cürə dolaşıq fikirlər gəlirdi. Hətta yoldaşını bir neçə gün güdmüşdü ki, görsün hara gedib, haradan gəlir. Heç nə hiss etməmişdi.

General xaricə göndəriləcək çekistlərə çox məxfi tapşırıqlar verəndə Ziyanı narahat, bənizi ağarmış, gözlərindən nigaranlıq yağan, yazıq zavallı kimi gördü. Tapşırıqdan sonra Ziya generalın yanına çağırıldı. Nə qədər dilə tutulsa da, generala heç bir söz demədi. Son ayların birində Oksananın ad günündə hamının müxtəlif şərablardan içib meyxoş olduğu, keyfləndiyi vaxt atası ilə arvadını bir-birini gizlin süzmələri gözündən qaçmamışdı.

London ezamiyyətindən iki gün tez qayıdırdı. Gecədən xeyli keçdiyi üçün ailəni narahat etmədi. Özündəki açarla qapını astaca açıb otağa keçdi. Beş otaqlı mənzilləri-ndə valideyinləri ilə yaşayırdılar. Sakitcə əl-üzünü yudu, ehmallı yataq otağına keçdi. Gözlərinə inanmadı...

Otaq başına fırlandı. Gözlərinə qaranlıq çökdü. Oksana atası ilə yatmışdı. Anasının süni davranış-hərəkətləri xəyalından keçdi. Hər şey aydın idi. Arvadın fitnə-fəsadı ona indi aydın oldu. Bir də doqquzuncu sinifdə oxuyanda qonşu qoca arvad ona demişdi ki, bunlar sənin valideyinlərin deyil. Sən atanın uzaq kənddə yaşayan bibisi nəvələrinin birinin uşağısan. Elə bil yaddaşı sürətlə çözələndi, keçmişə qayıtdı və o vaxt qoca qonşularının dediyi sözlər kino lenti kimi gözləri önünə gəldi. Bu nə deməkdir? Valideyinlərimin uşağı olmayıbsa bəs bu nə hoqqadır. Ani düşündü ki, doğmamaq günahı Qalinada olubdur.

Qoşa çarpayıda yatanlara baxdıqca qanı cuşa gəldi, çənəsi əsdi, əlləri titrədi. Xidməti silahını çıxarıb yatanların başına dirədi. Hər ikisi ayılmadan, yuxudaykən al-qan içində qaldılar.

Beyni qanla dolmuş Ziya o biri otağa keçdi. Gözünü qırpmadan dəli dərəcəsinə gəlibmiş kimi analığını da, uşağı da qətlə yetirdi.

Vanna otağında üz-gözünə su vurdu. Soyuducudan bir şüşə mineral su götürüb başına çəkdi. Əlləri titrəyirdi. Özünü ələ almaq, harasa zəng etmək istədi, fikrindən daşındı. Mətbəxdəki stolun üstündə axşam yeyilib-içildikdən sonra qalan araqdan bir çappa stəkan süzüb başına çəkdi. Nə etdiyini yenə də dərk etmirdi. Gözünü qan tutmuşdu. Tapançasının darağına bir güllə qoyub başına dirədi...

Xeyli vaxt sonra bu faciəli xəbəri eşidib Bakıya gəldim. Evlərinin qapısı bağlı idi. Qonşuları dedi ki, Ziyanı Sibir həbsxanalarına göndəriblər...

Bakı, 2019

Baba BABAYEV